**Azərbaycan Respublikasının Satınalmalar üzrə Dövlət Agentliyinin ləğv edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarının ləğv edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin aşağıdakı fərmanları ləğv edilsin:

1. "Tender haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 7 aprel tarixli 570 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997,   5, maddə 345; 1999,   7, maddə 409);

2. "Azərbaycan Respublikasının Satınalmalar üzrə Dövlət Agentliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 20 fevral tarixli 855 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003,   2, maddə 87; 2008,   11, maddə 970; 2009,   12, maddə 983; 2011,   2, maddə 85; 2013,   10, maddə 1158);

3. "Azərbaycan Respublikasının Satınalmalar üzrə Dövlət Agentliyinin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 23 iyul tarixli 140 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009,   7, maddə 543).

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 20 may 2016-cı il
899